AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 15.12.2017 |
| Qeydiyyat nömrəsi | 04 |
| Adı | "Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 28.12.2017 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 420.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201712150004 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 27.12.2017 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.6-cı yarımbəndini rəhbər tutaraq, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 may tarixli 1399 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli Qərarında (Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının 2015-ci il 15 iyul tarixli 1 nömrəli, 2016-cı il 27 sentyabr tarixli 3 nömrəli, 2016-cı il 7 dekabr tarixli 4 nömrəli qərarları ilə edilmiş dəyişikliklərlə) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qərarın preambulasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra isə "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "İxrac nəzarətinə düşən və Energetika Nazirliyinin səlahiyyətinə aid olan malların (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün xüsusi icazənin verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu" üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, beşinci abzasında "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin və 3.3.3-cü yarımbənddə "dövlət orqanı" sözləri "dövlət qurumu" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələrinin dövriyyəsinə dair xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" üzrə inzibatı reqlament"in 1.3-cü bəndinin beşinci abzasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, altıncı abzasında "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən

yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin edilsin və 3.3.3-cü yarımbənddə "dövlət orqanı" sözləri "dövlət qurumu" sözləri ilə əvəz edilsin;

1.4. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi məqsədilə müraciətin və sənədlərin qəbulu" üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, beşinci abzasında isə "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin;

1.5. həmin Qərarla təsdiq edilmiş 6 nömrəli əlavə - "Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin ikinci abzasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, üçüncü abzasında isə "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin;

1.6. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin ikinci abzasında "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri, üçüncü abzasında isə "Mərkəzi icra hakimiyyəti orqanları" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin.

2. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün üç gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunması təmin edilsin.

3. Elektron idarəetmə və informasiya şöbəsinə tapşırılsın ki, bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində dərc edildikdən sonra bu Qərarla edilmiş dəyişikliklər nəzərə alınmaqla inzibati reqlamentlərin Azərbaycan Respublikası Energetika Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**energetika naziri** **Pərviz Şahbazov**